Saziş 460 min ABŞ dolları dəyərindədir. Qrant Sazişinin əsas məqsədi Ali Təhsil Layihəsinin hazırlanması üçün tələb olunan texniki-iqtisadi əsaslandırmaların tərtibi, ekoloji, sosial, iqtisadi və digər araşdırmaların aparılması, icra planlarının hazırlanması, maraqlı tərəflər arasında məsləhətləşmələrin, ölkə daxili təlimlərin, tədqiqatların, seminarların və sorğuların təşkili, texniki məsləhət xidmətlərinin təmin edilməsidir.

Bu layihəyə əsasən ali təhsildə keyfiyyətin təminatı və bununla bağlı mərkəzin, müəssisələrdə isə qurumların yaradılması, ali təhsildə maliyyə islahatları, islahatların idarə olunması və icrası üçün potensialın gücləndirilməsi, eləcə də digər komponent və alt komponentlər üzrə müvafiq işlərin həyata keçirilməsi nəzərdə tutulur.